İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi (İTY)
Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)

**"Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi**

# AZƏRBAYCANDA DƏRİ MƏMULATLARI SEKTORUNUN İQTİSADİ PERSPEKTİVLƏRİNİN ARAŞDIRILMASI

**Bakı 2017**

*Sənəd İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin* **ABŞ BİA-nın maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda kiçik sahibkarlığın inkişafına dəstək"** *layihəsi çərçivəsində hazırlanıb.*

**Tədqiqatı hazırladı:**

**Samir ƏLİYEV**

**Az1102, Azərbaycan, Bakı şəhəri,**
**Tbilisi prospekti, 2-ci Alatava küçəsi 9**
**Tel: (99412) 4317713**
**Faks: (99412) 4317713**
**E-mail: sei@azeronline.com**
**Web: www.sei.az**

© İqtisadi Təşəbbüslərə Yardim İctimai Birliyi
Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu

# MÜNDƏRİCAT


| | |
|---|---|
| GİRİŞ | 4 |
| Dəri məmulatları sektorunun mövcud vəziyyətinin statistik analizi | 5 |
| Azərbaycanda dəri məmulatları sektorunun mövcud vəziyyəti və əsas problemləri | 10 |
| Dəri məmulatlarının xarici ticarəti | 18 |
| Dünyada dəri məmulatlarının xarici ticarəti | 31 |
| Nəticə və təkliflər | 36 |
| İstinadlar | 38 |

# GİRİŞ

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etməli sahələri barədə düşündükdə eyni zamanda yüngül sənayesi sektoru yada düşür. Vaxtilə yüngül sənaye ölkəmizdə əsas istehsal sahələrindən olub. Azərbaycanda yüngül sənayenin ümumi sənayedə payı ötən əsrin 90-cı illərinin əvvəllərində 20% civarında olsa da sonrakı illərdə kəskin azalaraq 0,4% həddinə qədər düşüb. Yüngül sənayenin bir hissəsi olan dəri məmulatları istehsalının sənayedə payı isə bu müddətdə təxminən 2%-dən 0,05%-ə qədər azalıb.

Sovet dövründə dəri məmulatları istehsal edən müəssisələr fəaliyyət göstərib və gön dəridən müxtəlif çeşiddə ayaqqabılar, geyimlər, baş örtükləri və xırdavat məmulatları istehsal edilib. Yeni iqtisadi sistemə keçidin nəticəsi olaraq müəssisələrin bir çoxu fəaliyyəti ya dayandırmış, ya da məhdudlaşdırmışdı. Xarici ölkələrdə müxtəlif çeşidli dəri məmulatlarının ölkəyə axını qarşısında rəqabət qabiliyyəti zəif olan yerli istehsal malları tədricən bazardan sıxışdırılaraq çıxarılıb.

Dəri məmulatlarının istehsalının dəyər ifadəsində həcmi 2005-ci ildən başlayaraq artmağa başlayıb və 2012-ci ildə ən yüksək həddə - 29,6 milyon manata çatıb. Sonrakı illərdə azalaraq 2015-ci ildə təxminən 2007-ci il səviyyəsinə düşüb.

Azərbaycanda dəri məmulatlarının növləri arasında əsasən ayaqqabı istehsalı geniş yayılıb. İl ərzində təxminən 100 min cüt civarında ayaqqabı istehsal olur. 2009-cu ildə istehsal olunan ayaqqabının sayı 857,8 min cütə də çatıb. Ancaq sonrakı illərdə azalma tendensiya müşahidə edilib. Azərbaycan əhalinin bir nəfərinə düşən ayaqqabı cütünün istehsal həcminə görə MDB ölkələri arasında sonuncu yerləri tutur. MDB ölkələri arasında ilk yerləri bölüşən Belorus və Qırğızıstanda ayaqqabı istehsalının həcmi adambaşına 1 cüt olduğu halda Azərbaycanda əhalinin hər 100 nəfərinə 1 cüt ayaqqabı istehsal olunur.

Ayaqqabıdan savayı digər məhsul xam dəri istehsalıdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda hər il təxminən 800-1200 kv.metr dəri istehsal olunur. Hökumət xam dəri ixracını məhdudlaşdırmaq üçün 2016-cı ildən etibarən ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələrinə dəyişiklik edərək xam dəri məmulatları 5 il müddətində ixrac rüsumuna cəlb edib. Qərara əsasən, noyabr ayının 5-dən başlayaraq iribuynuzlu və xırdabuynuzlu mal-qaranın və ya atlar fəsiləsi heyvanlarının dəriləri ixrac rüsumuna cəlb edilir və hər ton üçün 500 ABŞ dolları məbləğində rüsum tutulur.

2016-cı ildə qəbul edilmiş **Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində** gön-dəri istehsalına önəm verilir və bu mallar potensial ixrac məhsulları qrupuna daxil edilir. Sənəddə bu

məhsulların istehsalının və ixracının daha da artırılması üçün dəstək mexanizmlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Daxili bazarı qorumaq üçün hökumət dəri məmulatlarının idxalın gömrük rüsumları və vergilər tətbiq edir və 2016-cı ildən başlayaraq idxal mallarına qarşı vergi yükü daha da artırılır. Vergi Məcəlləsinə 2016-cı ildə edilmiş dəyişikliyə görə, idxal olunan xəz-dəri məmulatları aksiz vergisinə cəlb edilməyə başlanıb.

İxracı stimullaşdırmaq üçün 2016-cı il tarixli Prezident Fərmanı ilə üstü təbii dəridən olan ayaqqabılar, təbii dəridən geyim əşyaları və digər məmulatlarən ixracı zamanı gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 6 faizi məbləğində vəsait ödənilir.

Dəri məmulatları sektorunda mövcud olan problemlərdən biri ölkələyə gətirilən malların uçotunun düzgün aparılmamasıdır. Rəsmi statistikaya görə, hər il ölkəmizə 43-ə qədər ölkədən 6 milyon dollara qədər müxtəlif çeşidli dəri məmulatları (ayaqqabı, geyim, baş örtüyü və s.) gətirilir. Ancaq BMT-nin Comtrade statistik bazasının məlumatları idxalın rəsmi məlumatlardan 4-5 dəfə çox olduğunu qeyd edir. Məsələn, DSK-ya görə, 2015-ci ildə ölkəyə idxal edilən müxtəlif növ dəri məmulatlarının həcmi 5,9 milyon ABŞ dolları olduğu halda Comtrade bazası idxalın həcminin 5 dəfə çox - 31,9 milyon dollar həcmində olduğunu göstərir. Digər mal qruplarında isə bu fərq daha çoxdur. Məsələn, çantlar üzrə bu fərq 10 dəfə, geyimlər üzrə 4,5 dəfə, ayaqqabılar üzrə 5 dəfə, məişət məmulatları üzrə 2 dəfə edir.

Aparılmış müsahibələr və müşahidələr göstərir ki, məhdud həcmdə dəri məmulatlarının istehsalında idxal olunan dəri xammalın istifadə olunur. Bunun əsas səbəbi yerli xammalın keyfiyyətinin lazımi səviyyədə olmamasıdır. Ölkəyə idxal olunan dəri məmulatlarının, o cümlədən ayaqqabıların, dəri geyimlərinin keyfiyyəti yoxlanılmır. Bu isə ucuz və keyfiyyətsiz malların ölkəyə yol tapmasına, yerli istehsalı sıxışdırıb bazardan çıxartmasına gətirib çıxarır.

## DƏRİ MƏMULATLARI SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİNİN STATİSTİK ANALİZİ

Azərbaycanda dəri məmulatları sektoru zəif inkişaf etmiş sahələrdəndir. Hazırda bu sektorun ümumi sənayedə payı təxminən 0,05%, qeyri-neft sənayesində isə 0,1% təşkil edir. Halbuki ötən əsrin 90-cı illərinin əvvəlində bu göstərici 1%-dən çox olub. SSRİ-nin tərkibində olduğumuz son iki ildə - 1990-1991-ci illərdə dəri məmulatlarının payı 1,4-1,8% civarında olub. Müstəqilliyin ilk iki ilində - 1992-1993-cü illərdə 0,7%-1,1% aralığında olub. Sonrakı illərdə digər sektorlar kimi dəri məmulatları

sektorunda müşahidə edilən tənəzzül, 1995-ci ildən başlayaraq neft sektorunun getdikcə böyük pay alması dəri sənayesinin payının kəskin azalması ilə nəticələndi. 2003-cü ildən sonra dəri məmulatları sənayesinin payı 0,1% həddini ötə bilmir.

Dəri məmulatlarının istehsalının dəyər ifadəsində həcmi 2005-ci ildən başlayaraq artmağa başlayıb və 2012-ci ildə ən yüksək həddə - 29,6 milyon manata çatıb. Sonrakı illərdə azalaraq 2015-ci ildə təxminən 2007-ci il səviyyəsinə düşüb.

İstehsal olunmuş məhsulunun dəyər ifadəsindən fərqli olaraq fiziki həcmi qeyri-sabit olub və ardıcıl artım və ya azalma tendensiyası nümayiş etdirməyib. Məhsulun fiziki həcmində əvvəlki illə müqayisədə 2006, 2008, 2011, 2013-2014-cü illərdə azalma qeydə alınıb. 2014-cü ildə azalma hətta 41% olsa da 2015-ci ildə yenidən 3%-lik artımla əvəz olunub. **(QRAFİK 1)**




**Qrafik 1. Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsal həcmi və anbarlarda hazır məhsul ehtiyatı, milyon manat**

2012-ci ildən başlayaraq məhsul istehsalının fiziki həcmcə azalması dəyər ifadəsndə də azalmasına səbəb olub. Ancaq 2015-ci ildə fiziki həcmin 3% artması fonunda məhsulun dəyəri 19.1 milyon manatdan 12.2 milyon manata qədər azalıb. Azalma anbarlarda hazır məhsul ehtiyatında da baş verib. **(QRAFİK 1)**

Ayaqqabıların natura ifadəsində istehsalının həcmi ilə bağlı statistik məlumat yeri ayaqqabı istehsalının kəskin azaldığını əks etdirir. 2009-cu ildə 857,8 min cüt ayaqqabı istehsal olunduğu halda 2015-ci ildə 87,9 min cütə qədər azalıb. Bununla da ayaqqabı istehsalının həcmi 2005-ci ildən bəri ən aşağı həddə üşüb. Ayaqqabı istehsalı 2012-ci ildən başlayaraq azalır. **(QRAFİK 2)**




**Qrafik 2. Ayaqqabıların natura ifadəsində istehsalının həcmi, min cüt**

MDB ölkələri arasında ayaqqabı istehsalının həcminə görə Azərbaycan sonuncu yerləri tutur. Qonşu ölkələr arasında ən çox ayaqqabı Rusiyada istehsal olunur. Bu ölkədə 2015-ci ildə 90,3 milyon cüt ayaqqabı istehsalı olunub. Bundan başqa Ukraynada 22,3 milyon cüt, Belorusda 9,9 milyon cüt, Qırğızıstanda isə 6,1 milyon cüt ayaqqabı istehsal olunub. **(CƏDVƏL 1)**

**Cədvəl 1**

**MDB ölkələrində ayaqqabı istehsalının natural həcmi**

| | Cəmi, milyon cüt | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
| Azərbaycan | 0.2 | 0.3 | 0.4 | 0.4 | 0.3 | 0.3 | 0.3 | 0.5 | 0.3 | 0.2 | 0.1 |
| Belarus | 10.1 | 10.9 | 11.2 | 11.0 | 11.1 | 13.1 | 13.9 | 16.5 | 15.8 | 14.0 | 9.9 |
| Qazaxıstan | 1.2 | 1.2 | 1.5 | 1.4 | 0.9 | 1,2 | 1.4 | 1.1 | 0.7 | 1.1 | 1.8 |
| Qırğızıstan | 0.1 | 1.1 | 3.1 | 5.7 | 5.1 | 3.1 | 5.0 | 2.6 | 2.1 | 3.0 | 6.1 |
| Moldova | 3.3 | 3.7 | 3.8 | 3.8 | 2.0 | 2.7 | 2.8 | 3.1 | 2.9 | 2.9 | 1.8 |
| Rusiya | 47.2 | 57.3 | 54.2 | 56.5 | 57.5 | 103 | 111 | 103 | 118 | 116 | 90.3 |
| Tacikistan | 0.03 | 0.03 | 0.04 | 0.04 | 0.03 | 0.04 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| Ukrayna | 20.5 | 21.2 | 22.5 | 22.2 | 20.4 | 25.7 | 28.2 | 28.3 | 30.5 | 27.5 | 22.3 |
| Ermənistan | 0.02 | 0.03 | 0.03 | 0.03 | 0.03 | 0.04 | 0.04 | 0.05 | 0.04 | 0.05 | 0.06 |

**Mənbə: DSK**

Azərbaycan əhalinin bir nəfərinə düşən ayaqqabı cütünün həcminə görə də son yerləri tutur. Adambaşına düşən ayaqqabı istehsalına görə MDB ölkələri arasında ilk yerləri Belorus və Qırğızıstan tutur. Bu ölkələrdə ayaqqabı istehsalının həcmi adambaşına 1 cütdür. Ən çox ayaqqabı istehsal edən Rusiyada əhalinin hər 100 nəfərinə

60 cüt ayaqqabı düşür. Moldova və Ukraynada bu göstərici 50 cütdür. Azərbaycanda isə əhalinin hər 100 nəfərinə 1 cüt ayaqqabı istehsal olunur. **(CƏDVƏL 2**

**Cədvəl 2**

**MDB ölkələrində əhalinin bir nəfərinə düşən ayaqqabı cütü**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 0.03 | 0.03 | 0.04 | 0.04 | 0.1 | 0.03 | 0.03 | 0.06 | 0.04 | 0.2 | 0.01 |
| Belarus | 1.0 | 1.1 | 1.2 | 1.1 | 1.2 | 1.4 | 1.5 | 1.7 | 1.7 | 1.5 | 1.0 |
| Qazaxıstan | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.06 | 0.04 | 0.06 | 0.1 |
| Qırğızıstan | 0.03 | 0.2 | 0.6 | 1.1 | 0.9 | 0.5 | 0.9 | 0.5 | 0.4 | 0.5 | 1.0 |
| Moldova | 0.9 | 1.0 | 1.1 | 1.1 | 0.6 | 0.6 | 0.8 | 0.9 | 0.8 | 0.8 | 0.5 |
| Rusiya | 0.3 | 0.4 | 0.4 | 0.4 | 0.4 | 0.8 | 0.8 | 0.7 | 0.8 | 0.8 | 0.6 |
| Tacikistan | 0.005 | 0.004 | 0.005 | 0.006 | 0.004 | 0.005 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 |
| Ukrayna | 0.4 | 0.5 | 0.5 | 0.5 | 0.4 | 0.6 | 0.6 | 0.6 | 0.7 | 0.6 | 0.5 |
| Ermənistan | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 |

**Mənbə: DSK**

Ayaqqabıdan savayı digər məhsul xam dəri istehsalıdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda hər il təxminən 800-1200 kv.metr dəri istehsal olunur. 2011-ci ildə dəri istehsalın həcmi 463 min kv.metr olduğu halda 2014-cü ildə 1205 min kv metrə yüksəlib, 2015-ci ildə isə 841,9 min kv. metrə düşüb.

Rəsmi statistikaya görə, dəri məmulatları sənayesinə yönəldilən investisiyaların həcmi həmişə aşağı olub. 2012-2014-cü illərdə isə ümumiyyətlə ayrılmayıb. 2015-ci ildə 2005-ci ildən sonra ən yüksək həddə 8,8 milyon manat ayrılıb. Bu sektora yarılan investisiya sənaye sektoruna yönəldilən investisiyaların 0,1%-ni təşkil edir.

Dəri məmulatları istehsalına çəkilən xərclərin strukturuna diqqət yetirdikdə məlum olur ki, material xərclərinin ümumi xəclərdə payı 80% civarında dəyişir. 2009-cu ildən başlayaraq material xərclərinin payı artmağa başlayıb. Əsas fondların amortizasiyası xərclərinin payı isə azalıb. Bu xərclərin payı 2009-cu ildən başlayaraq azalmağa başlayıb və 8,5%-dən 2015-ci ildəki 1,4%-ə düşüb. Əmək haqqı xərclərinin payı isə son illər 12-15% arası dəyişib. 2011-ci ildən sonra material xərclərinin artması ilə əmək haqqı xərclərinin azalması müahidə olunub. **(QRAFİK 3)**




**Qrafik 3. Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalına sərf edilmiş xərclərin strukturu, faizlə**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2005-2015-ci illərdə dəri məmulatları və ayaqqabı istehsalı ilə məşğul olan müəssisələrin sayı 29-dan 23-ə qədər azalıb. 2011-ci ildə onların sayı 20-yə düşsə də sonrakı illərdə yenidən artım tendensiyası nümayiş etdirib. Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi  sahibkarların sayı bu müddətdə 121-dən 177-yə qədər artıb. Fərdi sahibkarların sayı 2012-ci ildə 195-ə qədər artsa da sonrakı illərdə azalmağa başlayıb. **(QRAFİK 4)**




**Qrafik 4. Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı ilə məşğul olan müəssisələrin iqtisadi fəaliyyət növləri və işçilərinin sayına görə qruplaşdırılması, vahid**

2009-2015-ci illərdə dəri məmulatları və ayaqqabı istehsal edən müəssisələrin ölçülərinin böyüməsi baş verib. 2009-ci ildə müəssisələrin 84%-i kiçik olduğu halda

2015-ci ildə belə müəssisələrin payı 43.5%-ə qədər azalıb, əvəzində orta və iri müəssisələrin payı yüksəlib. Müəssisələrin cəmisi 1-i dövlət mülkiyyətinə məxsusdur. **(QRAFİK 4)**

Rəsmi statistikaya görə, dəri məmulatları sektorunda 0,9 min nəfər muzdlu işçi çalışır. Sektorda çalışanların orta aylıq əmək haqları 2015-ci ildə 502 manat olub ki, bu da ümumi sənayedəki orta maaşdan (809,3 manat) aşağı, ölkə üzrə orta maaşdan (462 manat) isə yüksəkdir.

## AZƏRBAYCANDA DƏRİ MƏMULATLARI SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİ VƏ ƏSAS PROBLEMLƏRİ

Dəri məmulatları yüngül sənaye sektoruna daxildir və sektorun mövcud vəziyyətində olan problemlər dəri məmulatlarının istehsalına da çətinliklər yaradır. Azərbaycanda yüngül sənayenin ümumi sənayedə payı ötən əsrin 90-cı illərinin əvvəllərində 20% civarında olduğu halda sonrakı illərdə kəskin azalmağa başlayıb və 2015-ci ildə 0,4% həddinə qədər düşüb. Sovet dövründə dəri məmulatları istehsal edən müəssisələr fəaliyyət göstərib və gön dəridən müxtəlif çeşiddə ayaqqabılar, geyimlər, baş örtükləri və xırdavat məmulatları istehsal edilib. Yeni iqtisadi sistemə keçidin nəticəsi olaraq müəssisələrin bir çoxu fəaliyyəti ya dayandırmış, ya da məhdudlaşdırmışdı. Xarici ölkələrdə müxtəlif çeşidli dəri məmulatlarının ölkəyə axını qarşısında rəqabət qabiliyyəti zəif olan yerli istehsal malları tədricən bazardan sıxışdırılaraq çıxarılıb.

2015-ci ilə qədər qeyri-neft sektorunun inkişafı hökümət qarşısında daha çox deklorativ xarakter daşıyıb və buna görə də sənayenin digər sahələri kimi dəri məmulatları sənayesinin də inkişafı istiqamətində qanunvericilik baxımından əhəmiyyətli addımlar atılmayıb. Azərbaycan Respublikasında 2014-cü il "Sənaye ili" elan edilir həmin ilin sonu – dekabrın 26-da "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının icrası çərçivəsində **Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün dövlət proqramı** qəbul edilir. Proqramda sənaye istehsalının dəstəklənməsi tədbirlərinin genişləndirilməsini, ənənəvi istehsal sahələrinin potensialının gücləndirilməsini, sənayenin infrastruktur təminatının yaxşılaşdırılmasını, qeyri-neft sənayesinə yerli və xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılmasını, sənayenin inkişaf etdirilməsi istiqamətində özəl sektorun iştirakı ilə son məhsulların istehsalınadək texnoloji zəncirlərin qurulması və s. nəzərdə tutur. Sənayenin rəqabət qabiliyyətinin artırılması və potensialının gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, sənaye zonaları və

klasterlərinin qurulması, kadr potensialının və elmi təminatın gücləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi proqrqmın əsas fəaliyyət istiqamətlərini təşkil edir.

2014-cü ilin sonlarına yaxın dünya bazarlarında neftin ucuzlaşması səbəbindən ixrac gəlirlərin əhəmiyyətli dərəcədə azalması hökuməti qeyri-neft sektoruna, o cümlədən dəri məmulatlarının istehsalı sənayesinə diqqəti artırdı və Proqramın icrasını stimullaşdırdı.

Bundan sonra 2016-cı ildə qəbul edilmiş **Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində** gön-dəri istehsalına önəm verilir və bu mallar potensial ixrac məhsulları qrupuna daxil edilir. Sənəddə Dövlət Statistika Komitəsinin məlumatına istinadən qeyd edilir ki, 2015-ci ildə ölkədən 12,2 milyon ABŞ dolları məbləğində emal olunmamış gön (təbii xəzdən başqa) və aşılanmış dəri ixrac edilib ki, bu da ölkəyə kifayət qədər yüksək həcmdə valyuta gətirilməsini təmin edib. Gələcəkdə bu məhsulların istehsalının və ixracının daha da artırılması üçün dəstək mexanizmlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Strateji Yol Xəritəsinə əsasən gön-dəri məmulatları idxalı əvəz etmək potensialı olan emal sənayesi məhsulları qrupuna daxil edilib və gön-dəri xammalı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsini nəzərdə tutur. Bunun üçün əsas məhsullara şamil edilən xüsusi alətlərin və stimullar paketinin hazırlanması nəzərdə tutulur. Bu paket eyni zamanda gön-dəri məhsulları üzrə daha əlverişli regionların müəyyənləşdirilməsi əsasında dövlətin tətbiq etdiyi daha effektiv vasitələri və dəstək mexanizmlərini özündə birləşdirəcəkdir. Xüsusilə də, ailə-kəndli təsərrüfatlarının və digər kiçik təsərrüfatların istehsal potensialından tam istifadə etmək üçün, rayon səviyyəsində orta, kənd səviyyəsində isə kiçik yun və gön-dəri emalı müəssisələri şəbəkəsinin formalaşdırılması istiqamətində müxtəlif inkişaf proqramları hazırlanacaqdır. Yol Xəritəsinə əsasən, 2017–2020-ci illərdə pambıq, barama, yun, gön-dəri xammalı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsini qarşısına prioritet olaraq qoyub.

Daxili bazarı qorumaq üçün hökumət dəri məmulatlarının həm idxalına, həm də ixracına gömrük rüsumları və vergilər tətbiq edir və 2016-cı ildən başlayaraq idxal mallarına qarşı vergi yükü daha da artırılıb.

Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli, 80 saylı **"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında"** Qərarına əsasən dəridən hazırlanmış müxtəlif növ çanta, geyim, ayaqqabı və məişət məmulatları 15% dərəcə ilə idxal rüsumuna cəlb edilirlər[1]. Bundan əlavə, Nazirlər Kabinetinin 31 yanvar 2005-ci il tarixli, 11 saylı **"Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında"** Qərarına əsasən, dəri

---

[1] http://www.e-qanun.az/framework/2691

məmuatlarına vergi güzəşti və azadolunmalar tətbiq edilmir və bu məmulatlar idxal edildikdə Vergi Məcəlləsinin 173.1-ci maddəsinə əsasən idxal olunan əmtəənin dəyərinin 18%-i həcmində ƏDV-yə cəlb olunur.

**Vergi Məcəlləsinə 16 dekabr 2016-cı il tarixli 454-VQD nömrəli Qanunla edilmiş dəyişiklik**[2] əsasında idxal olunan xəz-dəri məmulatları aksiz vergisinə cəlb edilməyə başlayıb. Vergi Məcəlləsinin 190.4-cü maddəsinə əsasən, ölkəyə gətirilən xəz-dəri məmulatlarına topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinin 10 faizi məbləğində aksiz dərəcələri tətbiq edilir.

Qeyri-neft sektorunun inkişafının təşviqi istiqamətində qəbul edilən bəzi qərarlar dəri məmulatları sektorunda çalışan sahibkarların investisiyalarının genişləməsi üçün müəyyən imkanlar yaradır. Belə ki, Vergi Məcəlləsinə 19 yanvar 2016-cı il tarixdə edilən dəyişiklik və əlavələrə əsasən investisiya təşviqi aldıqda[3]:

- *fərdi sahibkarlar 7 il müddətinə gəlir vergisinin, hüquqi şəxslər mənfəət vergisinin 50%-i səviyyəsində vergidən;*
- *həm hüquqi, həm fərdi sahibkarlar investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün ƏDV-dən;*
- *həm hüquqi, həm fərdi sahibkarlar investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə əmlak vergisindən;*
- *həm hüquqi, həm fərdi sahibkarlar investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə torpaq vergisindən azaddırlar.*

Bundan əlavə, istehsal məqsədli avadanlıqların idxalına güzəştlər tətbiq edilir. "Gömrük tarifi" haqqında Qanunun 20.0.16-cı maddəsinə əsasən, dəri məmulatları aşağıdakı hallarda gömrük rüsumundan azad və ya qismən azad olunurlar.

- *Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi qaydada investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;*
- *Azərbaycan Respublikasının Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — rezidentin sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındığı tarixdən 7 il müddətinə;*
- *Azərbaycan Respublikasının Prezidentinin qərarına əsasən yaradılan sənaye parkında Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən İqtisadiyyat Nazirliyinin*

[2] http://www.e-qanun.az/framework/33861
[3] http://www.e-qanun.az/code/12

*təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı – 2016-cı il mayın 1-dən 5 il müddətinə.*

Ölkə prezidentinin 20 aprel 2016-cı il tarixli fərmanı ilə təsdiqlənmiş **"İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası** isə investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi prosedurlarını müəyyən edir. Qaydalara görə, investisiya təşviqi sənədi almış sahibkara müvafiq qurğu və avadanlıqların idxalı üçün təsdiqedici sənəd təqdim olunur və onlar bu sənəd əsasında həm Vergi Məcəlləsinin, həm də "Gömrük tarifi" haqqında Qanunun verdiyi güzəştlərdən bəhrələnmək imkanı qazanırlar.

Sahibkarların investisiya təşviqi sənədi alması qaydaları ölkə prezidentinin 18 yanvar 2016-cı il tarixli 745 saylı **"İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında"** fərmanı ilə müəyyən edilib. Qaydalara əsasən, aşağıdakı 3 meyara cavab verən sahibkarlar investisiya təşviqi sənədi almaq üçün müraciət edə bilərlər:

1) *investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsinin hökumətin prioritetlərinə uyğunluluğu;*
2) *investisiya layihəsinin həcminin hökumətin müəyyən etdiyi minimal məbləğə uyğunluğu;*
3) *investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidinin hökumətin müəyyən etdiyi ərazilərə uyğunluğu.*

Hər 3 meyar ölkə prezidentinin 20 aprel 2016-cı il tarixli fərmanı ilə təsdiqlənmiş **"İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"**nə əsasən müəyyən edilib. Sənədə əsasən, ölkə ərazisi investisiya təşviqi nöqteyi nəzərdən 5 regiona bölünür və təşviq üçün 36 sahibkarlıq fəaliyyəti istiqaməti müəyyən edilib. Sənədə əsasən, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı da investisiya təşviqi verilə biləcək fəaliyyət istiqamətlərinə daxil edilib. Qaydaya əsasən, investisiya təşviqini almaq üçün sahibkarlar 1-ci *regionda*[4] *(Bakı şəhəri (Bakı ətrafı qəsəbələr istisna olmaqla)* ən azı 5 milyon manat, 2-ci regionda *(Bakı ətrafı qəsəbələr və Abşeron rayonu)* ən azı 2 milyon manat, 3-cü regionda *(Sumqayıt, Gəncə)* ən azı 1 milyon manat, 4-cü regionda *(1, 2, 3 və 5-ci regionlara aid edilməyən şəhər və rayonlar)* ən azı 400 min manat, 5-ci regionda (*Naxçıvan Muxtar Respublikası, Füzuli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi, Naftalan, Goranboy, Göygöl, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Ağstafa, Lerik, Yardımlı, Balakən, Qusar)* ən azı 200 min manat məbləğində investisiya yatırmalıdır. İnvestisiya

[4] Region 1 üzrə dərinin aşılanması, rənglənməsi və hazırlanması sinfinə daxil olan istehsalın qurulması istisnadır

layihəsinin həcmi ilə bağlı nəzərdə tutulmuş minimal məbləğin 10 faizini təsdiqləyən sahibkarlar yuxarıda sadalanan güzəştlərdən yararlanmaq imkanı qazanırlar.

Mühüm normativ-hüquqi sənədlərdən biri qeyri-neft məhsullarına ixrac təşviqinin verilməsi qaydalarıdır. **"Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Prezidentin** 1 mart 2016-cı il tarixli 811 saylı Fərmanı ilə ölkə ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilməyə başlanıb. Ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 (üç) faizini təşkil edir. Bu Fərmanının icrası olaraq Nazirlər Kabinetinin 6 oktyabr 2016-cı il tarixli 401 saylı Qərarı ilə **ixrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının siyahısı"** təsdiq edilib və üstü təbii dəridən olan ayaqqabılar, təbii dəridən geyim əşyaları və digər məmulatlar bu siyahıya daxil edilib. Qərar əsasında təbii dəridən olan geyim və ayaqqabılara ixrac təşviqinin baza məbləğinə 2 əmsal tətbiq edilir. Bu o deməkdir ki, bu mal qruplarının ixracı zamanı gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 6 faizi məbləğində vəsait alacaq.

Nazirlər Kabinetinin **"Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə tətbiq edilməsi haqqında"** 343 saylı, 1993-cü il 1 iyul tarixli Qərarına əsasən, insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaradan və ya mühüm zərər vuran məhsulun buraxılmasının və satışının qarşısını almaq üçün məhsullar məcburi sertifikatlaşdırmadan keçməlidir. Qərar əsasında bir sıra məhsullar, o cümlədən dəri və dəriəvəzedicidən hazırlanmış məhsullar, dəri-xəz məhsulları sertifikatlaşdırılması məcburi olsullar siyahısına daxil edilib.

Dövlət Standartlaşdırma Komitəsinin məlumatına görə, ölkə üzrə sertifikatlaşdırma orqanlarından sertifikat almış dəri məmulatları istehsalı ilə məşğul olan müəssiələr və istehsal olunan məhsullar üzrə normativ sənədlər aşağıdakılardır:

1. *"QOŞABULAQ-A" MMC - ГОСТ 939-94 (Ayaqqabı üçün üzlük dəri)*
2. *"Azəri-M" MMC - ГОСТ 939-94 (Ayaqqabı üçün üzlük dəri)*
3. *"Gilan Dəri" MMC - ГОСТ 939-94 və ГОСТ 382-91 (Sənaye emalı üçün çeşidlənmiş dəri xammalı)*
4. *Daimoni MMC - ГОСТ 26167-2005 (Təbii dəridən gündəlik kişi ayaqqabıları)*
5. *Green Group Advertising MMC - ГОСТ 28425-90 (Göndəri xammalı)*
6. *"Laçın-2012" MMC - ГОСТ 939-94 (Ayaqqabı üçün üzlük dəri) və ГОСТ 382-91 (Sənaye emalı üçün çeşidlənmiş dəri xammalı)*
7. *F/ş Cəfərov Qasım İbrahim oğlu - ГОСТ 28507-99 (Mexanik təsirlərdən qorunmaq üçün dəridən xüsusi ayaqqabılar) və ГОСТ 447-91 (Hərbçilər üçün ayaqqabılar)*
8. *Araz Ltd MMC - ГОСТ 24871-81 (Hərbçilər üçün xüsusi kostyumlar ayaqqabılar)*

Digər sektorlardan fərqli olaraq dəri məmulatları sənayesində ayrıca milli standartlar tətbiq edilmir. Dəri məmulatları istehsalında sovet dövründə qəbul edilmiş və ya müasir dövrə uyğunlaşdırılmış dövlət standartları - QOSTlar tətbiq edilir. Bu standatlar aşağıdakılardır:

- *ГОСТ 26167-2005. Gündəlik ayaqqabılar. Ümumi texniki şərtlər*
- *ГОСТ 28631-2005. Çantalar, çemodanlar, portfellər, arxa çantaları, qovluqlar, xırdavat məmulatları. Ümumi texniki şərtlər*
- *ГОСТ 26165-2003. Uşaq ayaqqabısı. Ümumi texniki şərtlər*
- *ГОСТ 19116-2005. Model ayaqqabılar. Ümumi texniki şərtlər*
- *ГОСТ 31293-05 Dəri paltarlar. Ümumi texniki şərtlər*
- *ГОСТ 28754-90 Bel və saat üçün kəmərlər. Ümumi texniki şərtlər*

Digər sektorlardan fərqli olaraq dəri məmulatları sənayesində ayrıca milli standartlar tətbiq edilmir. Dəri məmulatları istehsalında sovet dövründə qəbul edilmiş və ya müasir dövrə uyğunlaşdırılmış dövlət standartları - QOSTlar tətbiq edilir. Azərbaycanda hazırda MDB ölkələrinin ümumilikdə qoşulduğu bəzi standartları da təsdiq edib.

Hökumət tərəfindən son illər atılan addımlara rəğmən dəri məmulatları sənayesi sovet dövrünün nəticələrini əldə edə bilməyib və idxaldan asılılıq yüksək səviyyədə qalmaqdadır. Əsas problemləri aşağıdakı kimi qruplaşdırmaq olar.

- **Yerli istehsalın idxal xammalından asılılığı yüksəkdir.**

Aparılmış müsahibələr və müşahidələr göstərir ki, məhdud həcmdə dəri məmulatlarının istehsalında idxal olunan dəri xammalın istifadə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2012-ci ildə ölkəyə 47,9 min dollar, 2013-cü ildə 211 min dollar, 2014-cü ildə 181,6 min dollar, 2015-ci ildə 41,9 min dollar, 2016-cı ildə 372,1 min dollar məbləğində emal olunmamış gön və aşılanmış dəri idxal olunub. **(Qrafik 5)**



**Qrafik 5. Emal olunmamış gön və aşılanmış dərinin idxal və ixracının həcmi, 2012-2016**

2015-ci ildə baş vermiş devalvasiya nəticəsində dəri idxalı 181,6 mindən 41,9 min dollara düşərək 4 dəfə azalsa da, 2016-cı ildə 8 dəfəyədək artaraq 327,1 min dollara yüksəlib və beş ilin maksimum həddinə çatıb. 2016-cı ildə qeyd edilən artımı əsasən gömrük-keçd məntəqələrində şəffaflığın artrılması istiqamətində atılan addımların nəticəsi kimi qiymətləndirmək olar.

- **Yerli xammalın keyfiyyəti lazımi səviyyədə deyil**

Malın keyfiyyətinin əsas parametrlərinin xammalın keyfiyyəti təşkil edir. Məhz keyfiyyətli xammal son məhsulun (ayaqqabı, geyim, baş örtüyü və s.) uzunömürlü olmasına zəmanət verir. Yerli xammalın keyfiyyəti aşağı olduğundan istehsalçılar xarici xammala üstünlük verirlər. Bu da məhsulun son qiymətinin baha başa gəlməsinə, xarici valyutaların milli valyutaya olan məzənnəsindən asılı olmasına gətirib çıxarır. bahalaşmasını şərtləndirir. Yerli xammal dərilərin cüzi hissəsi ixrac olunsa da, böyük əksəriyyəti istehsaldan kənarda qalır.

İstehsalçıların yerli xammala maraq göstərməməsinin bir neçə səbəbini qeyd etmək olar:

- Xırda və iribuynuzlu mal-qaranın kəsimi düzgün aparılmadığından dəri istehsala yararlı keyfiyyətini itirir.
- Vaxtı-vaxtında vaksinasiya aparılmadığından mal-qara müxtəlif cür dəri xəstəlikləri tapır və dərinin keyfiyyəti əhəmiyyətli dərəcədə aşağı düşür.

- **İdxal olunan dəri məmulatlarının keyfiyyəti yoxlanılmır.**

Ölkəyə idxal olunan dəri məmulatlarının, o cümlədən ayaqqabıların, dəri geyimlərinin keyfiyyəti yoxlanılmır. Sahibkarlar malın qiymətinin ucuz olması üçün xaricdən yüksək keyfiyyəti olmayan mallar gətirilər. Həmin mallar qiymət baxımından yerli istehsalı sıxışdırıb çıxarır. Ancaq həmin məmulatların keyfiyyətinin aşağı olması sonrada istehlakçılarda müxtəlif xəstəliklər yaradır.

Nazirlər Kabinetinin 2016-cı il 17 iyun tarixli 231 saylı Qərarı [5] ilə dəri məmulatlarına daxil olan ayaqqabılar sanitar nəzarətinə aid malların siyahısına daxil edilsə də ayaqqabılar nəzarətdən kənarda qalıb.

[5] "Baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid malların Vahid Siyahısı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 17.06.2016, №231

- **Keyfiyyətli yerli xammal istehsala yox, ixraca yönəldilir.**

Daxili istehsalın idxal xammalından asılı olmasıma rəğmən yerli xammal ixrac olunur. Rəsmi məlumatlara görə, Son 5 ildə ölkədən çıxarılan xam dərinin həcmi 81,6 milyon dollar həcmində olub. Bunların 61,1 milyon dollarını iribuynuzlu, 20,5 milyon dollarını isə xırdabuynuzlu heyvanların dəriləri təşkil edir. **(Qrafik 6)**




**Qrafik 6. 2012-2016-cı illərdə emal olunmamış gön və aşılanmış dərilərin ixracının həcmi, milyon ABŞ dolları**

2013-cü ildən başlayaraq xırdabuynuzlu heyvan dərilərinin ixracı azalmağa başlasa da, iributnuzlu heyvan dərilərinin ixracında 2015-ci il istisna olmaqla artım tendensiyası olub.

2012-2016-cı illərdə ümumilikdə ölkədən 4,8 milyon ədəd iribuynuzlu, 8,8 milyon ədə xırdabuynuzlu heyvan dərisi ixrac olunub. İribuynuzlu dərilərin qiyməti 9,7-18,1 dollar, xırda buynuzlu dərin qiyməti 1,36-2,8 dollar arasında dəyişib.

Hökumət xam dəri ixracını məhdudlaşdırmaq üçün ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələrinə dəyişiklik edib. **Nazirlər Kabinetinin 5 oktyabr 2016-cı il tarixli, 379 saylı Qərarı ilə** bir sıra mal qrupları, o cümlədən xam dəri məmulatları 5 il müddətində ixrac rüsumuna cəlb ediliblər. Qərara əsasən, noyabr ayının 5-dən başlayaraq iribuynuzlu *(camış daxil olmaqla)* və xırdabuynuzlu mal-qaranın və ya atlar fəsiləsi heyvanlarının dəriləri *(təzə və ya duzlu, qurudulmuş, küllənmiş, pikellənmiş və ya digər üsulla konservləşdirilmiş, lakin aşılanmamış, perqamentə hazırlanmamış və ya sonradan emal edilməmiş),* tük örtüyü ilə və ya onsuz, ikilənmiş və ya ikilənməmiş halda ixrac rüsumuna cəlb edilir və hər ton üçün 500 ABŞ dolları məbləğində rüsum

tutulur. Bundan başqa iribuynuzlu mal-qaranın (camış daxil olmaqla) gönündən aşılanmış dəri və ya krast və ya atlar fəsiləsi heyvanlarının, tük örtüyü olmayan gönlərindən hazırlanan, ikilənmiş və ya ikilənməmiş və sonradan emal edilməmiş dərilərin hər tonu üçün 350 ABŞ dolları məbləğində ixrac rüsumu tutulur. Xırda buynuzlu heyvanların dərilərinin analoji emal formasından hər ton üçün 150 ABŞ dolları məbləğində ixrac rüsumu tutulur.

- **Ölkəyə idxal olunan dəri məmulatlarının gömrük-keçid məntəqələrində uçotu düzgün aparılmır.**

Azərbaycana gətirilən müxtəlif çeşidli dəri məmulatların (ayaqqabı, geyim, baş örtüyü və s.) həcminə dair Dövlət Statistika Komitəsi ilə BMT-nin Comtrade statistik bazasının məlumatları arasında kəskin fərq mövcuddur. DSK məlumatlarında 2015-ci ildə 43 ölkədən dəri məmulatlarının idxal olunduğu qeydə alındığı halda Comtrade bazasında ölkələrin sayı 40-ı ötmür. DSK-ya görə, 2015-ci ildə ölkəyə idxal edilən müxtəlif növ dəri məmulatlarının həcmi 5,9 milyon ABŞ dolları olduğu halda Comtrade bazası idxalın həcminin 5 dəfə çox - 31,9 milyon dollar həcmində olduğunu göstərir. **(Cədvəl 4)** Dəridən hazırlanan müxtəlif növ mal qruplarında da oxşar vəziyyətdir. Milli Statistika Komitəsi ölkəyə 1.1 milyon dollar həcmində çanta gətirildiyini, Comtrade isə bundan 10 dəfə çox – 10,9 milyon dollarlıq çanta gətirildiyini bildirir. Geyimlər üzrə bu fərq 4,5 dəfə, ayaqqabılar üzrə 5 dəfə, məişət məmulatları üzrə 2 dəfə edir. ***(Daha ətraflı "Dəri məmulatlarının xarici ticarəti" bölməsində)***

# DƏRİ MƏMULATLARININ XARİCİ TİCARƏTİ

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2012-2016-cı illərdə ümumilikdə ölkəmizə 48547,88 min dollarlıq həcmində dəridən hazırlanlanmış müxtəlif çeşiddə məmulatlar idxal olunub. Bu malların 52%-i 2016-cı ilin payına düşür. Ölkəyə rəsmi olaraq 2012-ci ildə 6051,8 min dollar, 2013-cü ildə 3830,7 min dollar, 2014-cü ildə 7668,9 min dollar, 2015-ci ildə 5815,71 min dollar, 2016-cı ildə 25180,77 min dollar məbləğində müxtəlif növ dəri məmulatları gətirilib. **(CƏDVƏL 3)**

Dəri məmulatlarının idxalı 2015-ci ildə azalsa da 2016-cı ildə əhəmiyyətli dərəcədə artıb. 2016-cı ildə gömrük sistemində idxal prosedurunun sadələşdirilməsi istiqamətində qanunvericilik baxımından atılan bir sıra addımlar gömrük rəsmiləşdirilməsi istiqamətindən şəffaflığı artırmış və qeyri-rəsmi idxalı minimuma endirib. *"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında"* 4 mart 2016-cı il tarixli, 1853 saylı Prezident Sərəncamının məqsədi gömrük sistemində

dövlət sərhədinin buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq və malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin daha da təkmilləşdirilməsi, ticarət-iqtisadi münasibətlərdə idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsini və s. təmin etməkdir. Sərəncamın ardınca 2016-cı il 21 may tarixdə qəbul edilmiş *"Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə QAYDALARI"* gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsini nəzərdə tutur.

Qanunvericilikdə edilmiş dəyişikliklərin nəticəsi olaraq dəri məmulatlarının idxalında 2016-cı ildə kəskin artım baş verib. Ayaqqabı məmulatları 495,5%, çanta məmulatları 238,2%, məişət məmulatları 148,6%, geyimlər 167,1% artıb. Halbuki adıçəkilən mal qruplarının idxalında 2015-ci ildə devalvasiyanın nəticəsi olaraq azalma qeydə alınıb. Ayaqqabı məmulatları 26,2%, çanta məmulatları 45,1%, geyimlər 4.,7% azalıb, məişət məmulatları isə 9,7% artıb. **(QRAFİK 7)**




**Qrafik 7. Dəri məlumatlarının idxalının 2012-2016-cı illər üzrə dinamikası**

*Cədvəl 3.*

**Təbii dəridən hazırlanmış məmulatların 2012-2016-cı illər üzrə ixrac və idxal səviyyəsi**

**Min ABŞ dolları**

| Malların adı | 2012 | | 2013 | | 2014 | | 2015 | | 2016 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | ixrac | idxal | ixrac | idxal | ixrac | idxal | ixrac | idxal | ixrac | idxal |
| | | | | | | | | | | |
| **ÇANTA MƏMULATLARI** | | | | | | | | | | |
| Xarici səthi təbii dəridən sakvoyaclar, çamadan, qadın yol çantaları, analoji məmulatlar | 0.3 | 40,7 | 6.6 | 133,8 | 0.3 | 246,8 | - | 104,35 | 0.18 | 538,94 |
| Üz səthi təbii, kompozisiyalı və ya lak dəridən çiyin qayışı olan və olmayan qadın çantaları | 8.2 | 907,5 | 0 | 891,5 | 12 | 1715,7 | 2.37 | 973,85 | 43.23 | 3107,23 |
| **CƏMİ:** | **8.5** | **948,2** | **6.6** | **1025,3** | **12.3** | **1962,5** | **2.37** | **1078,2** | **43.41** | **3646,17** |
| **MƏİŞƏT MƏMULATLARI** | | | | | | | | | | |
| Üzü təbii dəridən cibdə və ya çantada gəzdirilən məmulatlar | 0 | 443,9 | 0 | 218,3 | - | 249,7 | - | 187,37 | 1.41 | 506.29 |
| Üzü təbii dəridən digər məmulatlar | 0 | 101,5 | 0.01 | 78,1 | - | 124 | 0.11 | 99,01 | 1.54 | 513.78 |
| Göndən və dəridən hazırlanmış digər məişət məmulatlar | 12.2 | 372,5 | 2.1 | 251,8 | 2.5 | 329 | 1.47 | 484,31 | 5.61 | 896.12 |
| **CƏMİ:** | **1.2** | **917,9** | **2.11** | **548,2** | **2.5** | **702,7** | **1.58** | **770,69** | **8.56** | **1916,19** |
| **GEYİMLƏR** | | | | | | | | | | |
| Təbii dəridən geyim əşyaları | 0 | 169,4 | 0 | 148,7 | - | 406,9 | - | 203,81 | 5.28 | 1143,95 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təbii dəridən digər əlcəklər, əlliklər, təkbarmaq əlcəklər | | 206,3 | 0.3 | 390,8 | 2.4 | 205 | - | 617,87 | 3.5 | 847,72 |
| Təbii dəridən qurşaqlar, qayışlar, aşırma qayışlar | 0 | 203,3 | 1.1 | 289,9 | 1.2 | 310,6 | - | 231,28 | 3.72 | 988,48 |
| Təbii dəridən hazırlanmış digər geyim ləvazimatları | 0 | 37,9 | 1.4 | 59,4 | - | 108,7 | - | 80,21 | - | 78,3 |
| Təbii və ya kompozisiyalı dəridən digər məmulatlar | 0 | 73,9 | 0 | 139,8 | - | 248,8 | 0.01 | 86,44 | 0.38 | 198,9 |
| **CƏMİ:** | **0** | **690,8** | **2.8** | **1028,6** | **3.6** | **1280** | **0.01** | **1219,61** | **12.88** | **3257,35** |
| **AYAQQABI MƏLUMATLARI** | | | | | | | | | | |
| Üstü dəri materialdan olan digər idman ayaqqabıları | | 60,2 | | 19,2 | | 105,4 | | 6,2 | | 2619,22 |
| Təbii dəri parçalarından qayışları və təbii dəridən altlığı olan idman ayaqqabıları | | 12,4 | | - | | 6,2 | | 25,82 | | 121,68 |
| Burun altlığı metaldan olan, üstü dəri digər idman ayaqqabıları | | 859,8 | | 957,1 | | 962,1 | | 842,47 | | 2402,82 |
| Topuqları örtən, üstü dəri digər ayaqqabılar | | 468,8 | | 109,7 | | 658,9 | | 493,3 | | 2774,16 |
| Üstü dəri materialdan olan digər ayaqqabılar | | 2071,5 | | 136,7 | | 1984 | | 1378,48 | | 7963,68 |
| Üstü təbii dəridən digər ayaqqabılar | | 22,2 | | 5,9 | | 7,1 | | 0,94 | | 479,5 |
| **CƏMİ:** | | **3494,9** | | **1228,6** | | **3723,7** | | **2747,21** | | **16361,06** |

**Mənbə: Dövlət Statistika Komitəsi**

İdxal olunan dəri məmulatları içində əsas üstünlüyü ayaqqabı məmulatları tutur. 2012-2016-cı illərdə ölkəyə gətirilən ayaqqabı məmulatlarının məbləği 2755,47 min dollar olub. Bu müddətdə xarici ölkələrdən təxminən 5311,56 min cüt müxtəlif çeşidli və təyinatlı ayaqqabılar gətirilib. **(CƏDVƏL 3)**

Ölkəyə dünyanın 66 ölkəsindən müxtəlif növ dəri məmulatları gətirilir. Dəri məmulatları ümumi idxalın təxminən 0,3%-ni təşkil edir. 2016-cı ilin məlumatlarına əsasən, bu əmtəə növü üzrə əsas idxalatçı ölkələr Çin (35,6%), İtaliya (20,88%), Türkiyədir (25,92%). Dəri məmulatları idxalının 82,4%-i üç ölkənin payına düşür. İspaniya, Hindistan, Rusiya, Vyetnam, Tunis kimi ölkələrin idxalda payı ayrı-ayrılıqda 3%-dən çox deyil. **(QRAFİK 8)**




**Qrafik 8. Xarici tərəfdaş ölkələrinin idxalda payı, 2016**
**Mənbə: Dövlət Statistika Komitəsi**

Ən böyük idxalatçı olan Çindən 2016-cı ildə 9 milyon dollar məbləğində mal gətirilib. Çin həmçinin ayaqqabı, geyim və məişət məmulatlarının əsas idxalçısıdır. Ayaqqabı məmulatlarının 35,4%-i, geyimlərin 31,9%-i, məişət məmulatlatlarının 59,84%-i bu ölkənin payına düşüb. Çindən sonra ikinci ən böyük ayaqqabı idxalçısı Türkiyədir. Ötən il qonşu ölkədən 5368,66 min dollar məbləğindən dəridən olan ayaqqabılar gətirilib. Türkiyədən ümumilikdə 6530,49 min dollar məbləğində dəri məmulatlarından hazırlanmış mallar gətirilib.

Çanta məmulatlarının əsas idxalçı ölkəsi isə İtaliyadır. İtaliyadan 2016-cı ildə 2146,85 min dollarlıq çanta məlumatları gətirilib ki, bu da bu mal qrupunun 58,9%-i

edir. Bu ölkədən ötən il 5260,82 min dollarlıq dəri məmulatları idxal olunub. **(CƏDVƏL 4)**

*Cədvəl 4*

## İdxal olunan dəri məmulatlarının ölkələr üzrə bölgüsü, 2016-cı il

| **Ölkələr** | **Məbləğ,** ***Min ABŞ dolları*** | | | | **CƏMİ** |
|---|---|---|---|---|---|
| | **Çanta məmulatları** | **Geyimlər** | **Ayaqqabı məlumatları** | **Məişət məmulatları** | |
| | | | | | |
| **Rusiya** | **0,11** | **5,13** | **409,45** | **2,45** | **417,14** |
| Albaniya | | | 81,76 | 0 | 81,76 |
| Almaniya | 2,07 | 12,02 | 20,99 | 6,39 | 41,47 |
| ABŞ | 0,76 | 11,24 | 8,32 | 5,33 | 25,65 |
| Avstriya | 0,45 | 4,46 | 0 | 0,01 | 4,92 |
| Avstraliya | | | | 0,4 | 0,4 |
| Banqladeş | 3,9 | 0,07 | 17,94 | 0,76 | 22,67 |
| BƏƏ | | | | 0,54 | 0,54 |
| Belorus | | | 0,6 | 0,04 | 0,64 |
| Birləşmiş Krallıq | 2,29 | 44,86 | 65,29 | 10,68 | 123,12 |
| Braziliya | | | 30,79 | 0 | 30,79 |
| Bolqarıstan | 12,76 | 1,22 | 10,46 | 0,13 | 24,57 |
| Bosniya və Herseqovina | | | 3,26 | 0,25 | 3,51 |
| CAR | | 0,08 | 0 | 0 | 0,08 |
| Çexiya | | 0,39 | 8,56 | 0,51 | 9,46 |
| **Çin** | **1043,44** | **1039,48** | **5732,72** | **1152,58** | **8968,22** |
| Honq Konq | | 2,69 | 0 | 0,08 | 2,77 |
| Danimarka | 0,67 | 0,03 | 6,01 | 0 | 6,71 |
| Filippin | 3,29 | 0,61 | 0,43 | 3,69 | 8,02 |
| Finlandiya | | | 0,05 | 0 | 0,05 |
| Fransa | 51,07 | 52,33 | 22,02 | 47,24 | 172,66 |
| **Hindistan** | **45,71** | **338,68** | **295,3** | **29,21** | **708,9** |
| Xorvatiya | | | 4,56 | 0 | 4,56 |
| İndoneziya | 15,84 | 14,78 | 191,04 | 11,43 | 233,09 |
| İran | 1,62 | 7,03 | 25,47 | 9,51 | 43,63 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **İspaniya** | **106,05** | **30,89** | **440,67** | **18,65** | **596,26** |
| İsrail | 0,05 | 0 | 0 | 0 | 0,05 |
| İsveç | | 0,07 | 0 | 0,08 | 0,15 |
| İsveçrə | 20,66 | 4,3 | 48,15 | 10,85 | 83,96 |
| **İtaliya** | **2146,85** | **703,74** | **2097,02** | **313,21** | **5260,82** |
| Kamboca | 1,82 | 14,08 | 103,35 | 2,38 | 121,63 |
| Kanada | | 0,57 | 0 | 0 | 0,57 |
| Kolumbiya | 0,48 | 0 | 0 | 0 | 0,48 |
| Koreya | 0,5 | 0,64 | 0 | 0,24 | 1,38 |
| Qvatemala | | 0,34 | 0 | 0 | 0,34 |
| Laos | | | 0,76 | 0 | 0,76 |
| Lüksemburq | | 0,44 | 0,82 | 0,09 | 1,35 |
| Makedoniya | | | 0,09 | 0 | 0,09 |
| Macarıstan | | 0,44 | 17,96 | 1 | 19,4 |
| Malayziya | | 0,47 | 0 | 11,21 | 11,68 |
| Mavrikiya | | 1,4 | 0 | 0 | 1,4 |
| Moldova | | | 6,25 | 1,57 | 7,82 |
| Mərakeş | 1,52 | 5,86 | 40,28 | 0,2 | 47,86 |
| Myanma | | | 3,99 | 0 | 3,99 |
| Niderland | | 2,85 | 0,97 | 0,51 | 4,33 |
| Nigeriya | | | 0,8 | 0 | 0,8 |
| Norveç | | 0,73 | 0 | 0,08 | 0,81 |
| Pakistan | 0,33 | 91,47 | 12,82 | 0,26 | 104,88 |
| Polşa | | | 11,09 | 0,16 | 11,25 |
| Portuqaliya | | 2,83 | 215,03 | 0 | 217,86 |
| Rumıniya | 17,55 | 48,84 | 125,4 | 2,58 | 194,37 |
| Şri-Lanka | | 1,81 | 0 | 0 | 1,81 |
| Serbiya | 0,12 | 0 | 25,46 | 0 | 25,58 |
| Sinqapur | 0,03 | 0 | 0 | 3,61 | 3,64 |
| Slovakiya | 0,21 | 0 | 16,11 | 0 | 16,32 |
| Sloveniya | | | | 0,34 | 0,34 |
| S.Ərəbistanı | | | 0,33 | 0 | 0,33 |
| Tailand | 1,06 | 0 | 25,38 | 11,58 | 38,02 |
| Tayvan | | 1,93 | 0 | 0,78 | 2,71 |
| Tunis | 4,32 | 2,56 | 295,82 | 0,75 | 303,45 |
| **Türkiyə** | **133,89** | **805,47** | **5368,66** | **222,47** | **6530,49** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Vyetnam** | **26,58** | **0,14** | **387,01** | **16,6** | **430,33** |
| Yaponiya | | 0,38 | 0 | 0 | 0,38 |
| Yunanıstan | 0,17 | 0 | 0 | 0 | 0,17 |
| Ukrayna | | | 181,8 | 25,4 | 207,2 |
| Zimbabve | | | | 0,12 | 0,12 |

**Mənbə: Dövlət Statistika Komitəsi**

İdxaldan fərqli olaraq dəri məmulatlarının ixracı çox zəifdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2012-2016-cı illərdə tərəfdaş ölkələrə ümumilikdə 601,01 min dollarlıq həcmində dəridən hazırlanlanmış müxtəlif çeşiddə məmulatlar göndərmişik. İxracın əsas hissəsi 2012-2013-cü illərin payına düşür. 2012-ci ildə 211 min dollar, 2013-cü ildə 135,21 min dollar, 2014-cü ildə 55,6 min dollar, 2015-ci ildə 85,08 min dollar, 2016-cı ildə 114,12 min dollar məbləğində müxtəlif növ dəri məmulatları ixrac edilib. **(CƏDVƏL 1)**

İdxalda olduğu kimi ixracda da əsas üstünlüyü ayaqqabı məmulatları tutur. 2012-2016-cı illərdə ölkəyə gətirilən ayaqqabı məmulatlarının məbləği 492,59 min dollar olub ki, bu da bütün dəri məmulatları ixracının 82%-ni təşkil edir. Ayaqqabı məmulatlarının ixracı 2012-ci ildə son beş ilin pik həddində olsa da sonrakı illərdə azalma tendensiyası nümayiş etdirib. Digər mal qrupları cüzu çəkiyə malikdirlər, ancaq bu mal qruplarının 2016-cı ildə ixracında artım baş verib. Belə ki, 2016-cı ildə çanta məmulatlarının ixracı 2,37 mindən 43,41 min dollara, məişət məmulatları 1,58 mindən 8,56 min dollara, geyimlər 0,01 mindən 12,88 min dollar yüksəlib. **(QRAFİK 9)**




**Qrafik 9. Dəri məlumatlarının ixracının 2012-2016-cı illər üzrə dinamikası, min ABŞ dolları**

2016-cı ildə Azərbaycan dünyanın 18 ölkəsinə dəri məmulatları ixrac edib. Əsas ixrac ölkələri İtaliya, İspaniya, Türkmənistan və Gürcüstandır. Dəri məmulatları üzrə ixracın 42.55%-i İtaliyanın, 31.25%-i Türkmənistanın, 14.0%-i İspaniyanın, 7,33%-i Gürcüstanın payına düşür. Ümumi dəri məmulatları ixracının 95,13%-i bu dörd ölkənin payına düşür. Yerdə qalan 14 ölkə 4,87%-lik paya malikdir. **(QRAFİK 9)**




**Qrafik 10. Xarici tərəfdaş ölkələrinin ixracda payı, 2016**
**Mənbə: Dövlət Statistika Komitəsi**

Ayaqqabı məmulatlarının böyük hissəsi – 72,38%-i Türkmənistana ixrac edilir. Çanta məmulatlarının və geyimlərin əsas alıcısı İtaliyadır. Çanta məmulatlarının 76,6%-i, geyimlərin 98,3%-i bu ölkəyə göndərilir. Məişət məmumatlarının əsas alıcı ölkəsi İspaniyadır. Ötən ilin məişət məmulatları üzrə ümumi ixracı 67,2%-i bu ölkənin payına düşüb. **(CƏDVƏL 5)**

*Cədvəl 5*

## İxrac olunan dəri məmulatlarının ölkələr üzrə bölgüsü, 2016-cı il

| Ölkələr | Məbləğ, *Min ABŞ dolları* | | | | CƏMİ |
|---|---|---|---|---|---|
| | Çanta məmulatlar 1 | Geyimlər | Ayaqqabı məlumatları | Məişət məmulatları | |
| | | | | | |
| Rusiya | | | 0.03 | | 0.03 |
| Almaniya | | 0.12 | | 0.33 | 0.45 |
| ABŞ | | | 0.96 | 0.2 | 1.16 |
| BƏƏ | | | | 0.05 | 0.05 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Birləşmiş Krallıq | | | 0.91 | 0.3 | 1.21 |
| Gürcüstan | | 0.01 | 7.05 | 1.3 | 8.36 |
| Çexiya | | | 0.05 | | 0.05 |
| Çin | 0.08 | | | | 0.08 |
| Fransa | | | 1.57 | 0.24 | 1.81 |
| İspaniya | 9.99 | | 0.23 | 5.75 | 15.97 |
| İtaliya | 33.24 | 12.65 | 2.66 | | 48.55 |
| Kanada | | 0.09 | | | 0.09 |
| Norveç | | | | 0.08 | 0.08 |
| Pakistan | | | 0.15 | | 0.15 |
| Sinqapur | 0.1 | | | | 0.1 |
| Türkmənistan | | | 35.66 | | 35.66 |
| Vyetnam | | | | 0.02 | 0.02 |
| Ukrayna | | | | 0.29 | 0.29 |

**Mənbə: Dövlət Statistika Komitəsi**

Tədqiqatın hazırlanması zamanı diqqəti cəlb edən məsələlərdən biri də ölkəyə idxal olunan dəri məmulatlarının statistik uçotundan kənarlaşmaların olmasıdır. Araşdırma zamanı Dövlət Statistika Komitəsinin məlumatları ilə BMT-nin Comtrade statistik bazasının məlumatları arasında fərqlər aşkarlandı. Comtrade bazasında məlumatlar ölkələrin özləri tərəfindən təqdim edilən məlumatlar, yəni müxtəlif növ və çeşiddə olan ərzaq və qeyri ərzaq mallarının idxal, ixrac, yenidən idxal və yenidən ixrac məlumatları yerləşdirilir. Bu baxımdan Comtrade bazasının məlumatlarının analizi bizə Azərbaycana dəri məmulatları ixrac edən ölkələrin hər birinin rəsmi məlumatlarını ayrı-ayrılıqda Dövlət Statistika Komitəsinin məlumatları ilə müqayisə etmək imkanı verdi.

Müqayisə üçün 2015-ci ilin məlumatları götürülüb. Comtrade bazasında ölkələrin sayının çoxluğu səbəbindən məlumatların toplanması proses gec baş verdiyindən 2016-cı ilin göstəricilərini analiz etmək mümkün olmayıb. Bu səbəbdən 2015-ci il üzrə dəri məlumatlarının Dövlət Statistika Komitəsindən idxal, Comtrade bazasından ixrac məlumatları götürülüb **(CƏDVƏL 6)**

**6-cı cədvəlin** məlumatları göstərir ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə ölkəyə idxal edilən müxtəlif növ dəri məmulatlarının həcmi 5,9 milyon ABŞ dolları olduğu halda Comtrade bazası idxalın həcminin 5 dəfə çox - 31,9 milyon dollar həcmində olduğunu göstərir. Dəridən hazırlanan müxtəlif növ mal qruplarında da oxşar vəziyyətdir. Milli Statistika Komitəsi ölkəyə 1.1 milyon dollar

həcmində çanta gətirildiyini, Comtrade isə bundan 10 dəfə çox – 10,9 milyon dollarlıq çanta gətirildiyini bildirir. Geyimlər üzrə bu fərq 4,5 dəfə, ayaqqabılar üzrə 5 dəfə, məişət məmulatları üzrə 2 dəfə edir.

Ölkələrin sayı arasında da fərqi görmək olur. DSK məlumatlarında 2015-ci ildə 43 ölkədən dəri məmulatlarının idxal olunduğu qeydə alındığı halda Comtrade bazasında ölkələrin sayı 40-ı ötmür. DSK-nın məlumatları hesabat dövründə Almaniya, Çexiya, Estoniya, Gürcüstan, Kipr, Lüksemburq, Macarıstan, Sloveniya və Yunanıstandan dəri məmulatları gətirilmədiyini göstərir. Halbuki Comtrade-dən fərqli olaraq DSK Azərbaycana Avstraliya, Banqladeş, Bosniya və Hersoqovina, Finlandiya, İndoneziya, İsrail, Komboca, Livan, Malayziya, San Marino, Şri Lanka, Tayvan və Tunisdən mal gətirildiyini təsdiqləyir.

Gömrük sistemində idxal prosedurunun sadələşdirilməsi istiqamətində atılan bir sıra addımlar nəticəsində 2016-cı ildə 2015-ci illə müqayisədə dəri məmulatlarının idxalının 4 dəfədən çox artması gömrük sistemində qeydiyyat problemlərinin olduğunu bir daha sübut edir. Devalvasiyadan sonra idxal mallarının manat ifadəsində kəskin bahalaşması fonunda satışın əhəmiyyətli azalması idxalatçıları mal dövriyyələrini azaltmağa, o cümlədən mal çeşidini məhdudlaşdıraraq nisbətən ucuz növlərə üstünlük vermələrinə vadar etdi. Belə bir vəziyyətdə dəri məmulatları idxalının bu qədər artmasını qeyri-rəsmi idxalın rəsmləşdirilməsi ilə bağlamaq olar. Qeyd edək ki, Comtrade bazasındakı 2016-cı il üzrə ilkin məlumatlarının emalı DSK məlumatları ilə fərqin əhəmiyyətli dərəcədə azaldığını göstərir.

## İdxal olunan dəri məmulatlarının ölkələr üzrə bölgüsü, 2015-ci il

| Ölkələr | Məbləğ, Min ABŞ dolları | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Çanta məmulatları | | | Geyimlər | | | Ayaqqabı məlumatları | | | Məişət məmulatları | | |
| | DSK | UN Comtrade | Fərq | DSK | UN Comtrade | Fərq | DSK | UN Comtrade | Fərq | DSK | UN Comtrade | Fərq |
| ABŞ | 273.38 | 8.547 | 264.833 | 69.89 | 63.054 | 6.836 | 18.87 | 16.079 | 2.791 | 8.1 | 8.58 | -0.48 |
| Almaniya | 0 | 315.444 | -315.444 | 0.00 | 481.925 | -481.925 | 0.00 | 1407.758 | -1407.758 | 0 | 347.33 | -347.33 |
| Avstriya | 0 | 15.879 | -15.879 | 0.27 | 60.947 | -60.677 | 4.17 | 200.949 | -196.779 | 0.57 | 6.24 | -5.67 |
| Avstraliya | 0 | | 0 | 0.00 | | 0 | 0.08 | | 0.08 | 0 | | 0 |
| Banqladeş | 0 | | 0 | 4.97 | | 4.97 | 0.00 | | 0 | 1.36 | | 1.36 |
| Belçika | 0 | 6.023 | -6.023 | 0.00 | 0.574 | -0.574 | 0.00 | 1.237 | -1.237 | 1.36 | 3.82 | -2.46 |
| Belorus | 6.73 | 6.600 | 0.13 | 0.08 | 0.100 | -0.02 | 2.92 | 0.000 | 2.92 | 0 | 0.00 | 0 |
| Bolqarıstan | 0 | 5.423 | -5.423 | 0.00 | 0.000 | 0 | 0.00 | 0.000 | 0 | 3.93 | 0.00 | 3.93 |
| Birləşmiş Krallıq | 4.65 | 372.464 | -367.814 | 53.18 | 175.358 | -122.178 | 30.69 | 270.877 | -240.187 | 34.25 | 65.18 | -30.93 |
| BƏƏ | 0 | 0.000 | 0 | 2.95 | 102.075 | -99.125 | 0.00 | 198.797 | -198.797 | 0.81 | 0.33 | 0.48 |
| Bosniya və Hersoqovina | 0 | | 0 | 0.00 | | 0 | 0.00 | | 0 | 0.28 | | 0.28 |
| Çin | 105.8 | 5,246.760 | -5140.96 | 229.12 | 47.876 | 181.244 | 1062.43 | 470.373 | 592.057 | 679.42 | 4.35 | 675.07 |
| Çexiya | 0 | 0.000 | 0 | 0.00 | 7.386 | -7.386 | 0.00 | 0.000 | 0 | 0 | 0.88 | -0.88 |
| Danimarka | 0 | 2.047 | -2.047 | 0.00 | 0.204 | -0.204 | 0.09 | 137.854 | -137.764 | 4.45 | 0.16 | 4.29 |
| Estoniya | 0 | 0.000 | 0 | 0.00 | 0.000 | 0 | 0.00 | 0.000 | 0 | 0 | 0.74 | -0.74 |
| Finlandiya | 0 | | 0 | 0.00 | | 0 | 0.00 | | 0 | 0.05 | | 0.05 |
| Fransa | 32.88 | 581.760 | -548.88 | 17.11 | 365.042 | -347.932 | 41.36 | 229.090 | -187.73 | 20.45 | 138.05 | -117.6 |
| Gürcüstan | 0 | 6.676 | -6.676 | 0.00 | 32.100 | -32.1 | 0.00 | 95.221 | -95.221 | 0 | 6.76 | -6.76 |
| Honq Konq | 0.78 | 407.201 | -406.421 | 1.68 | 15.375 | -13.695 | 1.70 | 776.367 | -774.667 | 0.96 | 20.50 | -19.54 |
| Hindistan | 6.28 | 36.589 | -30.309 | 175.85 | 9.808 | 166.042 | 36.23 | 9.679 | 26.551 | 16.08 | 52.15 | -36.07 |
| İndoneziya | 0 | | 0 | 31.93 | | 31.93 | 7.81 | | 7.81 | 4.17 | | 4.17 |
| İspaniya | 0 | 69.676 | -69.676 | 28.90 | 208.188 | -179.288 | 15.95 | 991.475 | -975.525 | 3.26 | 18.16 | -14.9 |
| İsrail | 0.04 | | 0.04 | 0.00 | | 0 | 0.00 | | 0 | 0 | | 0 |
| İsveç | 0 | 0.119 | -0.119 | 0.00 | 0.000 | 0 | 3.98 | 10.199 | -6.219 | 0 | 0.00 | 0 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İsveçrə | 47.15 | 146.351 | -99.201 | 15.54 | 110.849 | -95.309 | 53.71 | 334.846 | -281.136 | 2.68 | 105.75 | -103.07 |
| Italiya | 571.23 | 3,518.173 | -2946.943 | 194.03 | 2,675.858 | -2481.828 | 412.14 | 5192.479 | -4780.339 | 41.87 | 692.09 | -650.22 |
| Komboca | 0 | | 0 | 0.00 | | 0 | 2.04 | | 2.04 | 0 | | 0 |
| Kanada | 0 | 0.000 | 0 | 0.00 | 0.265 | -0.265 | 0.00 | 0.145 | -0.145 | 0 | 0.00 | 0 |
| Korea | 0 | 0.200 | -0.2 | 0.00 | 0.000 | 0 | 0.00 | 0.000 | 0 | 0.1 | 14.77 | -14.67 |
| Kipr | 0 | 0.000 | 0 | 0.00 | 0.822 | -0.822 | 0.00 | 0.656 | -0.656 | 0 | 0.00 | 0 |
| Qazaxıstan | 0 | 0.000 | 0 | 0.00 | 0.000 | 0 | 0.00 | 0.549 | -0.549 | 0 | 0.30 | -0.3 |
| Livan | 0.95 | | 0.95 | 0.00 | | 0 | 0.00 | | 0 | 0 | | 0 |
| Lüksemburq | 0 | 1.005 | -1.005 | 0.00 | 0.491 | -0.491 | 0.00 | 5.106 | -5.106 | 0 | 0.00 | 0 |
| Macarıstan | 0 | 0.000 | 0 | 0.00 | 2.449 | -2.449 | 0.00 | 0.000 | 0 | 0 | 0.00 | 0 |
| Malayziya | 0 | | 0 | 0.00 | | 0 | 4.51 | | 4.51 | 0.91 | | 0.91 |
| Pakistan | 0 | 0.000 | 0 | 95.98 | 1.765 | 94.215 | 0.00 | 0.000 | 0 | 0.05 | 0.00 | 0.05 |
| Norveç | 0 | 0.000 | 0 | 7.37 | 53.362 | -45.992 | 9.22 | 10.407 | -1.187 | 0.32 | 0.00 | 0.32 |
| Niderland | 13.04 | 65.790 | -52.75 | 19.58 | 68.596 | -49.016 | 17.04 | 197.103 | -180.063 | 3.96 | 134.67 | -130.71 |
| Polşa | 0 | 7.942 | -7.942 | 0.00 | 8.423 | -8.423 | 0.00 | 170.808 | -170.808 | 0.95 | 8.41 | -7.46 |
| Portuqaliya | 0 | 0.000 | 0 | 0.00 | 0.163 | -0.163 | 15.99 | 13.330 | 2.66 | 0 | 0.00 | 0 |
| Rumıniya | 0.45 | 0.000 | 0.45 | 3.77 | 0.000 | 3.77 | 51.66 | 0.291 | 51.369 | 4.03 | 0.27 | 3.76 |
| Rusiya | 0 | 0.003 | -0.003 | 13.17 | 11.877 | 1.293 | 73.40 | 196.333 | -122.933 | 0.21 | 11.02 | -10.81 |
| San Marino | 0 | | 0 | 0.00 | | 0 | 0.00 | | 0 | 0.12 | | 0.12 |
| Sinqapur | 0 | 0.000 | 0 | 3.09 | 5.927 | -2.837 | 0.78 | 0.000 | 0.78 | 0 | 0.00 | 0 |
| Slovakiya | 0 | | 0 | 0.00 | | 0 | 5.15 | | 5.15 | 0 | | 0 |
| Sloveniya | 0 | 0.000 | 0 | 0.00 | 3.158 | -3.158 | 0.00 | 0.000 | 0 | 0 | 0.00 | 0 |
| Şri Lanka | 0 | | 0 | 14.56 | | 14.56 | 0.00 | | 0 | 0 | | 0 |
| Tailand | 0 | 0.000 | 0 | 23.17 | 0.090 | 23.08 | 2.24 | 0.000 | 2.24 | 0.55 | 0.00 | 0.55 |
| Tayvan | 0 | | 0 | 0.00 | | 0 | 0.00 | | 0 | 4.13 | | 4.13 |
| Tunis | 0 | | 0 | 0.00 | | 0 | 191.56 | | 191.56 | 1.1 | | 1.1 |
| Türkiyə | 12.2 | 111.033 | -98.833 | 72.90 | 316.918 | -244.018 | 516.87 | 3374.870 | -2858 | 76.86 | 205.40 | -128.54 |
| Yunanıstan | 0 | 0.000 | 0 | 0.00 | 0.000 | 0 | 0.00 | 8.693 | -8.693 | 0 | 0.00 | 0 |
| Ukrayna | 0 | 0.102 | -0.102 | 1.46 | 0.869 | 0.591 | 10.32 | 9.670 | 0.65 | 0 | 0.43 | -0.43 |
| Vyetnam | 0 | 0.000 | 0 | 0.00 | 0.000 | 0 | 117.24 | 0.000 | 117.24 | 63.76 | 0.52 | 63.24 |
| | | | | | | | | | | | | |
| **CƏMİ:** | **1075.56** | **10931.807** | **-9856.247** | **1080.55** | **4831.894** | **-3751.344** | **2710.15** | **14331.241** | **-11621.091** | **981.1** | **1846.86** | **-865.76** |

**Qeyd: Cədvəl Dövlət Statistika Komitəsinin (www.stat.gov.az)və BMT-nin Comtrade statistik bazasının (https://comtrade.un.org/data/) məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.**

# DÜNYADA DƏRİ MƏMULATLARININ XARİCİ TİCARƏTİ

BMT-nin Comtrade adlı məlumat bazasının məlumatlarının analizi göstərir ki, dünyada dəri məmulatlarının xarici ticarət dövriyyəsi kifayət qədər böyükdür. 2015-ci ilin yekunlarına görə, dəri məmulatlarının dünya üzrə ixracı dəyər ifadəsində 78.7 mlrd. dollar təşkil edib[6].




**Qrafik 11. Dəri məlumatlarının ixracının mal qrupu üzrə bölgüsü**

Dəridən hazırlanan mallar çanta, geyim, ayaqqabı və məişət məmulatları şəklində ixrac edilib. Dünya üzrə dəri ixracının 59,3%-i ayaqqabıların payına düşür. 2015-ci ildə müxtəlif növ dəri ayaqqabılarının ixracı həcmi 46,7 milyard ABŞ dollarına bərabər olub. Çantaların payı 18,1%, geyimlərin payı 13,9% təşkil edib. Ölkələr 14.2 milyard dollar məbləğində çanta, 11 milyard məbləğində geyib ixrac ediblər. Yerdə qalan 8,6% məişət təyinatı dəri məmulatlarının payına düşüb və ixracın həcmi 6,8 milyard dollara yaxın olub. **(Qrafik 11)**

Çin ən böyük ixracatçıdır və 2015-ci ildə dünya üzrə dəri məmulatlarını ixracının 23,4%-nə sahib olub. Bu ölkənin ixracı 18,4 milyard ABŞ dolları məbləğinə bərabər olub. İkinci ən böyük ixracatçı ölkə olan İtaliyanın ixracı 11 milyard dollar olmaqla 14%-lik paya malik olub. Fransa, Honq-Konq və Vyetnamın ixrac payı və həcmi təxminən eyni olub. Ümumilikdə götürdükdə dünya üzrə dəri məmuları ixracının 57,2%-i 5, 74,4%-i isə 10 ölkənin payına düşüb. **(CƏDVƏL 7)**

[6] https://comtrade.un.org/data/

*Cədvəl 7*

**Dəri məmulatlarının 2015-ci il üzrə əsas ixracatçı ölkələri**

| Ölkələr | İxracın həcmi, ABŞ dolları | Cəmi ixracda payı, faizlə |
|---|---|---|
| | | |
| 1. Çin | $18,380,859,911 | 23.4 |
| 2. İtaliya | $11,039,099,944 | 14.0 |
| 3. Fransa | $5,248,280,016 | 6.7 |
| 4. Honq Konq | $5,258,571,193 | 6.7 |
| 5. Vyetnam | $5,089,664,964 | 6.5 |
| 6. Almaniya | $3,222,848,509 | 4.1 |
| 7. Hindistan | $3,086,495,715 | 3.9 |
| 8. İspaniya | $2,512,386,314 | 3.2 |
| 9. İndoneziya | $2,364,535,967 | 3.0 |
| 10. Niderland | $2,334,692,287 | 3.0 |

**Mənbə: UN Comtrade Database. https://comtrade.un.org/**

Çanta məmulatlarının ən böyük ixracatçı ölkəsi 27%-lik paya malik İtaliyadır. 2015-ci ildə bu ölkənin ixracı 3,8 milyard dollardan çox olub. Çinin ixrac etdiyi çantalar 3 milyard dollara yaxın olub və bütün çantaların 20,8%-ni təmin edib. Fransanın ixracda payı 17%-ə, Honq Konqun payı isə 12,7%-ə bərabərdir. İlk 5 ən böyük çanta ixracatçısı ölkələrinin bazar payı 80,6%-dir. Dünya üzrə çanta ixacı bazarının 89,2%-i 10 ölkənin nəzarətindədir. **(CƏDVƏL 8)**

*Cədvəl 8*

**Çanta məmulatlarının 2015-ci il üzrə əsas ixracatçı və idxalatçı ölkələri**

| İxrac | | | İdxal | | |
|---|---|---|---|---|---|
| Ölkələr | İxracın həcmi, ABŞ dolları | Cəmi ixracda payı, faizlə | Ölkələr | İdxalın həcmi, ABŞ dolları | Cəmi idxalda payı, faizlə |
| | | | | | |
| 1. İtaliya | $3,841,977,556 | 27.0 | 1. Honq Konq | $2,194,653,783 | 16.2 |
| 2. Çin | $2,955,798,126 | 20.8 | 2. ABŞ | $1,956,021,637 | 14.4 |
| 3. Fransa | $2,422,747,764 | 17.0 | 3. Fransa | $1,089,383,676 | 8.0 |
| 4. Honq Konq | $1,809,856,146 | 12.7 | 4. Çin | $915,424,915 | 6.8 |
| 5. Hindistan | $436,128,298 | 3.1 | 5. İtaliya | $779,500,480 | 5.8 |
| 6. Birləşmiş | $269,435,477 | 1.9 | 6. Birləşmiş | $760,824,257 | 5.6 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Krallıq | | | Krallıq | | |
| 7. İspaniya | $264,714,470 | 1.9 | 7. Koreya | $656,850,471 | 4.8 |
| 8. Niderland | $246,435,405 | 1.7 | 8. Almaniya | $562,089,178 | 4.1 |
| 9. ABŞ | $237,602,261 | 1.7 | 9. Yaponiya | $511,715,607 | 3.8 |
| 10. Vyetnam | $196,339,580 | 1.4 | 10. Sinqapur | $454,091,379 | 3.4 |
| | | | | | |
| **Cəmi:** | **$14,226,564,089** | | **Cəmi:** | **$13,550,362,411** | |

**Mənbə: UN Comtrade Database. https://comtrade.un.org/**

2015-ci ildə çanta idxalının həcmi 13,6 milyard dollar yaxın olub. Əsas idxalatçı ölkələr Honq Konq, ABŞ və Fransa olub. Bu ölkələrin dünya üzrə cəmi idxalda uyğun olaraq 16.2%, 14,4 və 8% olub. İxracdan fərqli olaraq idxalda təmərgüzləşmə səviyyəsi nisbətən aşağı olub. İlk 5 ən böyük idxalatçı ölkənin bazar payı 51.2%, 10 ölkənin bazar payı 72,9% təşkil edib. **(CƏDVƏL 8)**

Məişət məmulatlarının əsas ixracatçı ölkələri Çin, İtaliya, Fransa və Honq Konqdur. Bu ölkələr ixracın 18,5%, 16,1%, 15,1% və 10,4%-ni bölüşdürürlər. Əsas idxalatçı ölkələr isə ABŞ, Yaponiya, Honq Konq, Fransa və Almaniyadır. Bütün idxalı ¼-i siyahıya başçılıq edən ABŞ-ın payına düşür. 2015-ci ildə ABŞ 2,3 milyard dollar həcmində məişət təyinatlı dəri məmulatı idxal edib. Məişət məmulatları üzrə ixrac bazarının 85,2%-i, idxal bazarının 75%-dən çoxu 10 ölkənin payına düşür. **(CƏDVƏL9)**

*Cədvəl 9*

**Məişət məmulatlarının 2015-ci il üzrə əsas ixracatçı və idxalatçı ölkələri**

| **İxrac** | | | **İdxal** | | |
|---|---|---|---|---|---|
| **Ölkələr** | **İxracın həcmi, ABŞ dolları** | **Cəmi ixracda payı, faizlə** | **Ölkələr** | **İdxalın həcmi, ABŞ dolları** | **Cəmi idxalda payı, faizlə** |
| | | | | | |
| 1. Çin | $1,257,086,746 | 18.5 | 1. ABŞ | $2,322,108,068 | 25.6 |
| 2. İtaliya | $1,091,413,391 | 16.1 | 2. Yaponiya | $1,322,197,383 | 14.6 |
| 3. Fransa | $1,027,154,971 | 15.1 | 3. Honq Konq | $722,643,681 | 8.0 |
| 4. Honq Konq | $707,872,034 | 10.4 | 4. Fransa | $480,778,331 | 5.3 |
| 5. Hindistan | $511,738,626 | 7.5 | 5. Almaniya | $431,673,282 | 4.8 |
| 6. ABŞ | $323,109,926 | 4.8 | 6. Birləşmiş Krallıq | $407,324,788 | 4.5 |
| 7. Niderland | $313,396,055 | 4.6 | 7. İtaliya | $366,733,717 | 4.0 |
| 8. Almaniya | $265,814,197 | 3.9 | 8. Koreya | $262,343,151 | 2.9 |
| 9. Vyetnam | $152,137,959 | 2.2 | 9. Çin | $241,883,212 | 2.7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10. İsveçrə | $144,275,681 | 2.1 | 10. Sinqapur | $241,187,957 | 2.7 |
| | | | | | |
| **Cəmi:** | **$6,795,659,987** | | **Cəmi:** | $9,065,519,510 | |

**Mənbə: UN Comtrade Database. https://comtrade.un.org/**

2015-ci ildə ayaqqabı məmulatlarının ən böyük ixracatçı ölkəsi Çin, idxalatçısı isə ABŞ olub. Hər iki ölkənin ayaqqabı dövriyyəsi 12 milyard dollara yaxın olub və bazarın ¼-nə nəzarət ediblər. İtaliya və Vyetnam digər ölkələrə ayrı-ayrılıqda 4,7 milyard dollarlıq mal göndərməklə ixracın 10%-ni təmin ediblər. İxrac bazarının 55,5%-i 5, 74,5%-i 10 ölkənin payına düşüb. **(CƏDVƏL 10)**

*Cədvəl 10*

**Ayaqqabı məmulatlarının 2015-ci il üzrə əsas ixracatçı və idxalatçı ölkələri**

| **İxrac** | | | **İdxal** | | |
|---|---|---|---|---|---|
| **Ölkələr** | **İxracın həcmi, ABŞ dolları** | **Cəmi ixracda payı, faizlə** | **Ölkələr** | **İdxalın həcmi, ABŞ dolları** | **Cəmi idxalda payı, faizlə** |
| | | | | | |
| 1. Çin | $11,916,431,058 | 25.5 | 1. ABŞ | $11,985,983,692 | 24.9 |
| 2. Italiya | $4,707,503,437 | 10.1 | 2. Almaniya | $4,443,639,841 | 9.2 |
| 3. Vyetnam | $4,667,801,195 | 10.0 | 3. Birləşmiş Krallıq | $3,262,603,750 | 6.8 |
| 4. Almaniya | $2,322,165,843 | 5.0 | 4. Fransa | $2,769,171,143 | 5.7 |
| 5. İndoneziya | $2,271,004,571 | 4.9 | 5. Italiya | $2,508,623,190 | 5.2 |
| 6. Honq Konq | $2,140,335,988 | 4.6 | 6. Honq Konq | $2,257,635,487 | 4.7 |
| 7. Belçika | $1,910,783,359 | 4.1 | 7. Niderland | $1,868,133,848 | 3.9 |
| 8. İspaniya | $1,812,181,367 | 3.9 | 8. Belçika | $1,681,163,165 | 3.5 |
| 9. Niderland | $1,570,171,527 | 3.4 | 9. Çin | $1,228,183,854 | 2.5 |
| 10. Portuqaliya | $1,393,295,003 | 3.0 | 10. Yaponiya | $1,124,359,387 | 2.3 |
| | | | | | |
| **Cəmi:** | **$46,683,461,418** | | **Cəmi:** | **$48,202,811,739** | |

**Mənbə: UN Comtrade Database. https://comtrade.un.org/**

ABŞ-dan sonra ən böyük idxalatçı ölkələr Almaniya, Birləşmiş Krallıq, Fransa və İtaliyadır. 2015-ci ildə Almaniya 4,4 milyard dollar, Birləşmiş Krallıq 3.2 milyard dollar, Fransa 2,8 milyard dollar və İtaliya 2,5 milyard dollar həcmində ayaqqabı idxal ediblər. İdxal bazarının 51,8%-i 5, 68,7%-i 10 ölkənin payına düşüb. **(CƏDVƏL 10)**

Dəridən hazırlanmış geyimlərin əsas ixracatçı ölkələri Çin, İtaliya, Hindistan, Fransa və Honq Konqdur. Çin 2.3 milyard dollar, İtaliya 1,4 milyard dollar, Hindistan 1

milyard dollar, Fransa 0,8 milyard dollar, Honq Konq 0,6 milyard dollar məbləğində geyim ixrac ediblər. Bu, 5 ölkənin ümumi ixracda bazar payı 55% olub. **(CƏDVƏL 11)**

*Cədvəl 11*

**Geyimlərin 2015-ci il üzrə əsas ixracatçı və idxalatçı ölkələri**

| İxrac | | | İdxal | | |
|---|---|---|---|---|---|
| **Ölkələr** | **İxracın həcmi, ABŞ dolları** | **Cəmi ixracda payı, faizlə** | **Ölkələr** | **İdxalın həcmi, ABŞ dolları** | **Cəmi idxalda payı, faizlə** |
| | | | | | |
| 1. Çin | $2,251,543,981 | 20.5 | 1. ABŞ | $1,695,075,103 | 16.8 |
| 2. İtaliya | $1,398,205,560 | 12.7 | 2. Almaniya | $833,817,407 | 8.3 |
| 3. Hindistan | $1,030,129,123 | 9.4 | 3. Fransa | $633,655,007 | 6.3 |
| 4. Fransa | $756,667,960 | 6.9 | 4. Honq Konq | $579,630,927 | 5.7 |
| 5. Honq Konq | $600,507,025 | 5.5 | 5. İtaliya | $497,276,844 | 4.9 |
| 6. Pakistan | $538,552,084 | 4.9 | 6. Birləşmiş Krallıq | $460,629,075 | 4.6 |
| 7. Almaniya | $447,303,114 | 4.1 | 7. Yaponiya | $374,860,098 | 3.7 |
| 8. ABŞ | $388,206,658 | 3.5 | 8. Çin | $344,789,744 | 3.4 |
| 9. Macarıstan | $309,871,755 | 2.8 | 9. Sinqapur | $307,012,513 | 3.0 |
| 10. İspaniya | $308,368,309 | 2.8 | 10. İspaniya | $299,924,789 | 3.0 |
| | | | | | |
| **Cəmi:** | **$10,969,104,526** | | **Cəmi:** | **$10,101,440,507** | |

**Mənbə: UN Comtrade Database.** **https://comtrade.un.org/**

2015-ci ildə 150-yə qədər ölkə tərəfindən ümumi məbləği 10 milyard dollar olan geyim idxal olunub. İdxalın 1,7 milyard dolları və ABŞ-ın payına düşüb. Digər ən böyük idxalatçı ölkələr Almaniya, Fransa, Honq Konq və İtaliyadır. Bu ölkələrin cəmi idxalatda payı 5-8% civarında dəyişir. Dünyanın dəridən olan geyimləri idxal edən 5 ən böyük ölkəsinin payı 44%-dir. **(CƏDVƏL 11)**

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Yüngül sənayenin, o cümlədən onun bir qolu olan dəri məmulatları sektorunun inkişafı məqsədləri bütün dünyada prioritetdir. Xüsusilə də inkişaf etməkdə olan ölkələrdə (Məsələn, Çin, Türkiyə, Hindistan və s.) milli iqtisadiyyatın inkişafının əsasını təşkil edir. Dünya üzə sənaye istehsalının 5.7%-i, məşğulluğun 14%-i yüngül sənayenin payına düşür. Bu ölkələrin əksəriyyətində yüngül sənayenin və bir sahəsi olan dəri məmulatları sektorunun inkişafının nəzərdə tutan dövlət proqramları qəbul olunur və güzəşt mexanizmləri tətbiq edilir.

Bu proqramlar özündə aşağıdakı istiqamətləri nəzərdə tutur:

- **Vergi və gömrük tənzimlənməsi.** Çində yüngül sənaye məhsullarının istehsalçılarına güzəştli vergi rejimi tətbiq edilir. Türkiyədə sektora gətirilən avadanlıqlar ƏDV və rüsumlardan azaddır. Qazaxıstanda yaradılmış xüsusi iqtisadi zonalarda yerləşən yüngül sənaye müəssisələri tam olaraq gəlir vergisindən azaddır.
- **İxracatçılara dövlət dəstəyi.** Türkiyədə ixracatçılara məqsədli güzəştli kreditlərin verilməsi, ixrac olunan məhsulun dəyərinə tətbiq edilən verginin tam və ya qismən qaytarılması, ixrac əməliyyatlarının sığortalanmasına və ixrac məhsulunun keyfiyyətinin artırılması ilə bağlı elmi tədqiqatlara ayrılan xərclərin müəyyən hissəsinin kompensasiya edilməsi və s kimi dövlət dəstəyi verilir.
- **Biznes infrastrukturunun yaradılması.** Çində ayrı-ayrı əyalətlər və şəhərlər müxtəlif məhsul istehsalı üzrə ixtisaslaşıb. Məhsulun rəqabətqabiliyyətini artırmaq üçün texnoparkların, logistik mərkəzlərin, elmi-tədqiqat institutları yaradılılır.
- **Texnologiyaların və avadanlıqların yenilənməsi.** Hindistanda yüngül sənayenin ayrı-ayrı sahələrində texnologiyaların yenilənməsi Proqramı icra olunur. Sxemin mahiyyətini kredit təşkilatlarının texnologiyaları yeniləyən şirkətlərə 5%-lik kompensasiyası təşkil edir. Aşağı texnoloji səviyyədə olan maşınların alınması üzrə faizlər geri ödənilmir. Texnologiyaların və avadanlıqların yenilənməsinə konsessiya kreditləri ayrılır.

Azərbaycanda müxtəlif ölkələrdə geniş yayılmış güzəşt və dəstək mexanizmlərnin bəziləri tam və ya qismət tətbiq edir. Məsələn, Türkiyədə olduğu kimi sektora gətirilən avadanlıqlar bir sıra vergilərdən azaddır, Qazaxıstanda olduğu kimi sənaye parklarında yerləşən müəssisələr tam olaraq gəlir vergisindən azaddır və s.

Ancaq bu sahəyə diqqətin yetirilməsi həm qeyri-neft sektorunun inkişafı, həm də yeni iş yerlərinin açılması baxımından vacibdir.

Özündə toxuculuğu, tikiş, xəz dəri, ayaqqabı sektorlarını birləşdirən yüngül sənaye sektoru sovet dövründə əsas diqqət yetirilən sahələrdən olub. Bu sektor əhalinin geyim, ayaqqabı və baş geyimə olan tələbatını ödəməklə yanaşı çoxlu sayda iş yerlərinini təmin edirdi. Hazırda dünyada sənayenin sektorial inkişafı prioritetdir və sektorlar üzrə dövlət proqramları icra olunur. Azərbycanda da dəri məmulatları sənayesini inkişaf etdirməkə həm xammalla təmin edən heyvandarlığı inkişaf etdirmək olar, həm də yerli istehsalı inkişaf etdirməklə idxaldan asılılığı azaltmaq olar.

Dəri məmulatları sektorunun inkişafı üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun olardı:

- Yüngül sənaye sektorunun, o cümlədən dəri məmulatları sənayesinin inkişafına fokuslaşmış dövlət proqramının qəbul edilməsi;
- Yerli istehsalın idxal xammalından asılılığı azaltmağa və yerli xammaldan istifadə imkanlarını stimullaşdırmağa yönəlik müxtəlif gömrük rüsumlarının tətbiqi;
- Dəri məmulatlarının istehsalında istifadə olunan yerli xam dərilərin keyfiyyətinin artırılması və istehsala yararlı olmasını təmin etmək məqsədilə mal-qaranı dəri xəstəliklərindən qoruyan vaksinasiya işlərinin vaxtlı-vaxtına aparılmsı və kəsimlərin düzgün aparımasının imkan verən xüsusi kəsim yerlərinin yaradılması;
- İdxal olunan dəri məmulatlarının keyfiyyətinə nəzarətin gücləndirilməsi və müvafiq milli keyfiyyət standartlarının qəbulu;
- Dəri xammalının ixracını məhdudlaşdıran fiskal tədbirlərin davam etdirilməsi;
- Gömrük-keçid məntəqələrində idxal olunan dəri məmulatlarının ölkəyə qanunsuz gətirilməsi hallarının tam aradan qaldırılması və qeydiyyat uçotunun düzgün aparılması;
- Dəri məmulatlarının ixracatçılarına məqsədli güzəştli kreditlərin verilməsi, ixrac olunan məhsulun dəyərinə tətbiq edilən verginin tam və ya qismən qaytarılması, ixrac əməliyyatlarının sığortalanmasına və ixrac məhsulunun keyfiyyətinin artırılması ilə bağlı elmi tədqiqatlara ayrılan xərclərin müəyyən hissəsinin kompensasiya edilməsi və s kimi dövlət dəstəyinin verilməsi
- Milli brendlərin yaradılması, tanıdılması və onlara inamın artırılması üçün infrastrukturun, stimullaşdırma və keyfiyyətə nəzarət mexanizmlərinin yaradılması
- Dəri məmulatlarının istehsalı üzrə kadr bazasının genişləndirilməsi, yüksək peşəkar kadr hazırlığına diqqətin artırılması

- Dəri məmulatlarının rəqabət qabiliyyətini artıran, yüksək enerji, əmək və materialtutmlu istehsalı aradan qaldırmağa imkan verən müasir texniki və texnoloji yeniliklərin ölkəyə gətirilməsinin dövlət tərəfindən stimullaşdırılması

## İSTİNADLAR


1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası
2. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün dövlət proqramı
3. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsin
4. Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli, 80 saylı "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" Qərarı
5. Nazirlər Kabinetinin 31 yanvar 2005-ci il tarixli, 11 saylı "Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Qərarı
6. İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası
7. İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Prezident Fərmanı
8. Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Prezidentin 1 mart 2016-cı il tarixli 811 saylı Fərmanı
9. Dövlət Statistika Komitəsinin "Azərbaycanın Xarici Ticarət Əlaqələri" bülleteni
10. Развитие легкой промышленности: опыт зарубежных стран https://articlekz.com/article/13924